hadisə olduğunu deyib.

# "Tıq-tıq xanım" beynəlxalq nağıl festivalında təqdim olunub

Hər il sentyabrın 20-dən oktyabrın 3-dək Almaniyanın Şimali-Rayn-Vestfalen əyalətinin Köln şəhərində Mədəniyyətlərarası Həftə (İnterkulturelle Woche) keçirilir. Bu çərçivədə təşkil olunan tədbirlərdən biri də dünya ölkələrinin nağılları festivalıdır. Festivalda 20 ölkədən nağıllar təqdim edilib, müxtəlif xalqların musiqilərindən nümunələr səsləndirilib.

Köln Şəhər Bələdiyyəsinin təşkil etdiyi və İGNİS Mədəniyyət Mərkəzində keçirilən festivalda beş qitənin mədəniyyəti təmsil olunub və Azərbaycan nağılı da dinləyicilərin diqqətinə çatdırılıb. Tədbirdə Azərbaycanla yanaşı, Bolqarıstan, Böyük Britaniya, Finlandiya, İtaliya, Yaponiya, Kanada, Kolumbiya, Meksika, Qvineya, Kamerun, Çexiya, Litva, Ukrayna və digər ölkələrdən olan uşaq və eyni zamanda böyüklər üçün də nəsihətlə dolu nağıllar səsləndirilib.

Tədbirdə ilk olaraq Azərbaycan nağılı "Tıq-tıq xanım" qonaqlara təqdim olunub. Aparıcı Florian Sever Azərbaycan haqqında qısa məlumat verib, sonra iki dildə -Azərbaycan və alman dillərində nağıl oxunub. "Tıq-tıq xanım" nağılını alman dilində aktrisa Kristina-Mariya Qreve böyük ustalıqla oxuyub.

Sonra Almaniyada yaşayan soydaşımız, Köln Konservatoriyasının dosenti, pianoçu Elnarə İsmayılova Azərbaycanın görkəmli bəstəkarı Fikrət Əmirovun miniatürlərini ifa edib. Azərbaycan nağılı gecəsinin təşkilində Köln Şəhər Bələdiyyəsinə Alman-Azərbaycan Forumu və Almaniyadakı Azərbaycanlıların Koordinasiya Mərkəzi də dəstək verib.